# SMART business

Microsoft Dynamics 365 Business Central

# SMART LOCALIZATION

## Təkmilləşdirmə qeydləri buraxılışı

v. 2026.04

Nəşr olunub

**Məxfilik bildirişi:** Bu sənəd məxfidir və kommersiya xarakterli məxfi məlumatları, həmçinin SMART business şirkətinin əqli mülkiyyətini ehtiva edir. Nə bu sənəd, nə də burada olan hər hansı məlumat SMART business şirkətinin əvvəlcədən yazılı razılığı olmadan heç bir halda çoxalda və ya açıqlana bilməz. Nəzərə alın ki, bu sənədin və buradakı məlumatın açıqlanması, surətinin çıxarılması, yayılması və ya istifadəsi qəti qadağandır.

# Mündəricat

**1.** Giriş hissəsi ..................................................................... 3

**2.** SMART Core & Localization for AZ Mühasibat Uçotunun təkmilləşdirilməsi ..................................... 4

**3.** SMART Payroll təkmilləşdirilməsi ..................................................................... 9

**4.** Sistemin təkmilləşdirilməsi proseduru ..................................................................... 17

**5.** SMART Localization təkmilləşməsi üzrə şərtlər və qaydalar ..................................................................... 18

# 1. Giriş hissəsi

Sənəd növbəti müntəzəm təkmilləşdirmə 2026.04-a daxil olan SMART Localization həllinin funksionallığında təkmilləşdirmələri və dəyişiklikləri təsvir edir. Təkmilləşdirməyə 01.01.26 tarixdən 31.03.26 tarixə qədər olan dövr üçün funksionallıq dəyişiklikləri daxildir.

## Məsuliyyətin məhdudlaşdırılması

Bu sənədin məzmunu yalnız məlumat üçündür və dərc olunduğu tarixdə SMART business MMC-nin mövzu ilə bağlı nəzər nöqtəsini əks etdirir. Bu sənəd və onun məzmunu SMART business MMC-nin öhdəliyi deyil və öhdəlik kimi təfsir edilməməlidir. SMART business MMC bu sənəddə olan hər hansı məlumatın düzgünlüyünə zəmanət vermir.

## Müəllif hüquqları haqqında xəbərdarlıq

Müəllif hüququ ilə bağlı bütün qanunlara riayət etmək istifadəçinin məsuliyyətidir. Bu sənədin məzmunu SMART business MMC-nin müəllif hüquqlarıdır. Müəlliflik hüququnun sahibi kimi SMART business MMC-nin hüquqlarını məhdudlaşdırmadan, bu sənədin heç bir hissəsi çoxaldıla, saxlanıla və ya axtarış sisteminə daxil edilə, yaxud hər hansı formada və ya hər hansı üsulla (elektron, mexaniki, surətçıxarma, qeyd, və ya başqa şəkildə) və ya hər hansı məqsədlə, yaxud SMART business MMC-nin açıq rəsmi yazılı icazəsi olmadan hər hansı digər işə və ya nəşrə daxil edilə bilməz. Bu sənədin çıxarışlarını şəxsi istifadəniz üçün köçürə bilərsiniz.

SMART business MMC bu sənədin mövzusu ilə bağlı patentlərə, patent müraciətlərinə, ticarət nişanlarına, müəllif hüquqlarına və ya digər əqli mülkiyyət hüquqlarına malik ola bilər. SMART business MMC-nin hər hansı ayrıca yazılı lisenziya müqaviləsində açıq şəkildə nəzərdə tutulmuş hallar istisna olmaqla, bu sənədin təqdim edilməsi Sizə bu patentlərə, ticarət nişanlarına, müəllif hüquqlarına və ya digər əqli mülkiyyətə heç bir lisenziya vermir.

© 2026 SMART business. Bütün hüquqlar qorunur. Burada qeyd olunan faktiki şirkətlərin və məhsulların adları onların müvafiq sahiblərinin ticarət nişanları ola bilər.

# 2. SMART Core & Localization for AZ Mühasibat Uçotunun təkmilləşdirilməsi

Təkmilləşdirmə qeydlərinə aşağıdakı təkmilləşdirmələr, yeni funksional imkanlar və səhvlərin düzəlişləri daxildir:

| Ölkə Kodu | ID | Məzmun | Funksional sahə | Dəyişiklik növü |
|---|---|---|---|---|
| CORE | #50495 | Təchizatçı və müştəri müqavilələri cədvəllərini “Ölçülər sütun kimi” seçimi aktiv edilmiş konfiqurasiya paketi vasitəsilə ixrac etmək imkanı əlavə olunub. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #75974 | Buraxılmış sənədlərə ödənişlərin çoxvalyutalı tətbiqi zamanı sənəd valyutasında tətbiq edilmiş avans ödənişlərin yenidən hesablanması əlavə edilmiş və sonrakı avans ödənişlərin tətbiqi üçün sənəddə qalan məbləğin düzgün hesablanması təmin edilmişdir. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #81495 | "Əməliyyatları ləğv et" səhifəsinə yeni funksiya - " Tarixə əsasən ləğv et" əlavə edilmişdir. Bu funksiya Maliyyə Jurnalı vasitəsilə yaradılmış əməliyyatları Növ olaraq B/K Əməliyyatı və / və ya ƏDV əməliyyatı seçilmişsə ləğv etməyə imkan verir. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #88964 | Maliyyə jurnalının bölmələri və sətirləri, həmçinin Baş kitab əməliyyatları və uçota alınmış maliyyə jurnalının sətirləri üçün “Əvvəlki dövrün düzəlişi” adlı yeni atribut əlavə edildi — əvvəlki mühasibat dövrləri ilə bağlı düzəlişlərin dəqiq işarələnməsi üçün. “Maliyyə dövrünün bağlanması” tapşırığının məntiqi dəyişdirildi: maliyyə nəticəsinin hesablanması zamanı “Əvvəlki dövrün düzəlişi” atributuna malik Baş kitab əməliyyatları storno kimi emal olunur — müvafiq bağlanma əməliyyatı düzəliş atributu ilə yaradılır və “Əvvəlki dövrün düzəlişi” atributunu miras alır. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #89297 | “Sifariş nömrəsi” xanasının doldurulma məntiqi dəyişdirildi. Bu, “Hesab-Faktura” tipli sənəd əsasında yaradılmış və uçota alınmış alış/satış fakturaları üzrə formalaşdırılan kredit-notlar üçün baş kitab qeydlərində tətbiq olunur.İndi belə kredit-notlar üçün “Sifariş nömrəsi” xanasının dəyəri uçota alınmış alış/satış fakturasında göstərilən əvvəlcədən təyin edilmiş nömrəyə uyğun olacaq. | Lokalizasiyanın əsası | New feature |

| | | | | |
|---|---|---|---|---|
| CORE | #91914 | "Genişləndirilmiş balans" parametri aktiv olduqda, baş kitab hesab dövriyyə cədvəlində İlkin balans Debet/Kredit və Qalıq balans Debet/Kredit xanalarının hesablanma məntiqi yeniləndi. İndi göstəricilər yalnız hesabın bir tərəfi üzrə klassik mühasibat balansını əks etdirir, əvvəlki yanaşma kimi debet və kredit üzrə dövriyyələri göstərmir. | Əməliyyatlar üzrə hesabatlıq | New feature |
| CORE | #91934 | "Malların qəbulu aktı" və "Malların silinməsi aktı" sənədlərinin kartları və siyahıları üçün (həm uçota alınmış, həm də uçota alınmamış mallar üzrə) ümumi sayı və məbləği göstərən yekun məlumat xanaları əlavə edilmişdir. | İnventar | New feature |
| CORE | #92497 | Təhtəlhesab şəxsin yaradılması təkmilləşdirildi: işçi kartındakı standart ölçülər avtomatik olaraq təhtəlhesab şəxs kartına köçürülür. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #92889 | "Əsas vəsaitlərə köçürmə" tipli malların silinməsi aktı üzrə uçot alqoritmi dəyişdirildi. Bir neçə mal vahidi bir əsas vəsait obyektinə köçürüldükdə, silinən malların sayından asılı olmayaraq, Əsas vəsaitlər üzrə əməliyyatlar kitabında bütün əməliyyatlar üzrə ƏV miqdarı həmişə 1-ə bərabər olur. | Əsas vəsaitlər | New feature |
| CORE | #93464 | Baş kitab üzrə dövriyyə cədvəlinin Excel-də açarkən xanaların göstərilməsi düzəldildi: indi "ƏHV-da məbləğləri göstər" seçimi aktiv olduqda ƏHV sütunları göstərilir, deaktiv olduqda isə yalnız yerli valyuta xanaları göstərilir. | Əməliyyatlar üzrə hesabatlıq | Bugfix |
| CORE | #95824 | "Əsas vəsaitlərin silinməsi aktı" sətirlərinə "Əsas vəsaitlərin uçot tarixinə qədər amortizasiya" göstəricisi əlavə edilib. Bu, son amortizasiya hesablanma tarixindən akt sətirində göstərilən uçot tarixinə qədər amortizasiyanın gündəlik hesablanmasına imkan verir. Həmçinin satış sənədləri üçün alqoritm yenilənib: "Əsas vəsaitlərin uçot tarixinə qədər amortizasiya" göstəricisi aktiv olduqda amortizasiya gündəlik hesablanır, əks halda isə hesablanmır. | Əsas vəsaitlər | New feature |
| CORE | #96138 | Xidmət sifarişlərində müştəri müqaviləsinin standart olaraq avtomatik doldurulması həyata keçirildi, həmçinin müştəri müqaviləsinin etibarlılıq müddətinə nəzarət alqoritmi yeniləndi. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #96196 | Müqavilələr üzrə kredit limitinin yoxlanılması mexanizmi optimallaşdırılıb ki, bu da bloklanmaların sayını əhəmiyyətli | Lokalizasiyanın əsası | New feature |

| | | | | |
|---|---|---|---|---|
| | | dərəcədə azaltmağa və biznes proseslərinin sabitliyini artırmağa imkan verib. | | |
| CORE | #96207 | Baş Kitab sazlama səhifəsinə yeni "Müqavilənin qüvvədən düşmə tarixini yoxla" düyməsi əlavə edilmişdir. Bu sazlama uçot zamanı sənədin uçot tarixinin əlaqəli müqavilənin qüvvədən düşmə tarixindən daha əvvələ aid olduğunu yoxlayır. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #96249 | Pərakəndə satışlar üçün Baş kitab (BK) hesablarının müxabirləşmə formalaşdırma məntiqi təkmilləşdirilib: xüsusilə, müxabirləşmə əməliyyatları ilə BK əməliyyatlarında hesab üzrə məbləğlərin müqayisəsi məntiqi əlavə edilib və aşkar edilən yuvarlaqlaşdırma fərqləri müxabirləşmə əməliyyatının son sətrinə daxil edilib. | Əməliyyatlar üzrə hesabatlıq | New feature |
| CORE | #96271 | “Baş kitab dövriyyə cədvəli” hesabatının yaddaşda saxlanılmış istifadəçi parametrləri ilə işləməsi düzəldildi. | Əməliyyatlar üzrə hesabatlıq | Bugfix |
| CORE | #96314 | Sifarişin avans ödənişinə tətbiqi zamanı tətbiqetmə xətası baş verərsə, sifarişin qeydiyyatı tamamlanmayacaq. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #96503 | “Təchizatçı ödənişlərini təklif et” funksiyasından istifadə edərkən bank ödəniş jurnalı sətirlərində sənəd nömrəsinin ardıcıl olmayan şəkildə formalaşmasına səbəb olan xəta aradan qaldırıldı. | Lokalizasiyanın əsası | Bugfix |
| CORE | #96758 | Bank çıxarışının açar sözlər üzrə tanınma məntiqi dəyişdirildi. Sistem açar söz üzrə uyğunluq tapdıqda, “Müxbir bankın qeydiyyat nömrəsi” və “Müxbir bankın hesab nömrəsi” xanalarının məcburi doldurulması artıq yoxlanılmır. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #97040 | İşçi kartından təhtəlhesab şəxs kartının yaradılması funksionallığı genişləndirildi. Artıq sistem təhtəlhesab şəxs kartında “Tam adı” və “Qeydiyyat nömrəsi” xanalarını işçi kartındakı məlumatlar əsasında avtomatik olaraq doldurur. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #97176 | Təchizatçı ödənişlərinin yaradılması üçün funksional genişləndirilmişdir. Müəyyən toplam ödəniş məbləğini qeyd etməklə və "Buraxılmış Alış Sifarişlərini daxil et" düyməsini yandırmaqla "Təchizatçı Ödənişlərini Təklif et" tapşırığını istifadə edərkən artıq sistem buraxılmış alış sifarişlərini də nəzərə alır. | Lokalizasiyanın əsası | New feature |

| | | | | |
|---|---|---|---|---|
| CORE | #97190 | Ətraflı dövriyyə-qalıq cədvəlində sifarişlər üzrə ətraflı balansın göstərilməsi düzəldilmişdir. Bundan sonra sifarişlər üzrə ətraflı balans seçilmiş dövrün əvvəlinə və ya sonuna olan mövcud qalığı göstərəcəkdir. | Əməliyyatlar üzrə hesabatlıq | Bugfix |
| CORE | #97265 | ƏV-in modernizasiya dövründə yaranmış amortizasiya hesablanmasındakı səhv aradan qaldırılmışdır. | Əsas vəsaitlər | Bugfix |
| CORE | #97502 | Müştəri və Təchizatçı kartlarında unikal qeydiyyat nömrəsinin yoxlanılması məntiqi dəyişdirildi — bu, satış və alış sazlaması bölməsində Qeydiyyat nömrəsini yoxla sazlaması aktiv olduqda tətbiq olunur. Yenilənmədən əvvəl, əgər başqa bir qarşı tərəfin Ödəyici/Ödəniş alıcısı xanası doldurulmuşdusa, eyni qeydiyyat nömrəsini daxil etmək mümkün idi. Hazırda isə yoxlama əlavə şərtlər olmadan həyata keçirilir. Bu isə təkrarlanan qeydiyyat nömrələrinin daxil edilməsinin qarşısını alır. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #97666 | "Təchizatçı Ödənişlərini Təklif et" tapşırığını istifadə edərək Bank Ödəniş Jurnalında təchizatçı ödənişlərini yaratmaq üçün funksionala Müqavilə üzrə filtr müəyyən etmək imkanı əlavə etdilmişdir. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #98153 | Müştəri əməliyyatların tətbiqinin ləğvi zamanı sifariş nömrəsinin silinməsi düzəldilmişdir. Ləğv etmənin hansı əməliyyatdan işə salınmasından asılı olmayaraq, Sifariş nömrəsi “Ödəniş” tipli bütün müştəri əməliyyatları üçün silinəcəkdir. | Lokalizasiyanın əsası | Bugfix |
| CORE | #98221 | Alıcılar və təchizatçılar üçün müqavilə kartından və siyahı formasından birbaşa müqavilə məzmununa ilkin baxış imkanı əlavə edildi. Bu, sənədi tam açmadan əsas şərtlərlə tez tanış olmağa imkan verir. Müqavilələrin təsdiqi üzrə biznes-prosesin qrafik sxeminə baxış imkanı da həyata keçirildi, bu isə mərhələlərin daha aydın görünməsini və prosesin şəffaflığını artırır. | Lokalizasiyanın əsası | New feature |
| CORE | #98378 | Əsas vəsait kartında inventar nömrəsinin yoxlanılması üçün yenilənmiş Microsoft koduna uyğunlaşdırma aparılıb. Əgər əsas vəsaitlərin quraşdırılmasında “Inventar nömrələrindən istifadə et” parametri aktivdirsə, amortizasiya şablonlarında “İnventar seriya nömrələri” xanası mütləq doldurulmalıdır. | Əsas vəsaitlər | New feature |
| CORE | #98740 | “Gələcək dövrlərin xərcləri” tipli əsas vəsaitlər üçün amortizasiya hesablanması | Əsas vəsaitlər | Bugfix |

| | | | | |
|---|---|---|---|---|
| | | alqoritmi, hesablamanın yalnız bir gün üçün aparılmalı olduğu hallarda düzəldilib. | | |
| **CORE** | #98963 | Təchizatçıya ödənişlərin formalaşdırılması zamanı "Təchizatçıya ödənişləri təklif et" tapşırığı vasitəsilə buraxılmış sifarişlərin seçimi ilə bağlı xəta aradan qaldırılıb. Tapşırıqda göstərilən son ödəniş tarixinə uyğun olaraq, buraxılmış sifarişlərin ödəniş müddəti üzrə filtrasiya əlavə edilib. | Lokalizasiyanın əsası | Bugfix |
| **CORE** | #99109 | Ödəniş üçün baş kitab hesabları üzrə müxabirləşmə yaradıldığı hallarda təchizatçı ödəniş qeydlərinin ilkin baxışındakı problem aradan qaldırıldı. | Əməliyyatlar üzrə hesabatlıq | Bugfix |
| **CORE** | #99270 | Qlobal analitik vahidlərin dəyişdirilməsi prosesinin funksionallığı yeniləndi. İndi qlobal analitik vahidlərin dəyişdirilməsi müxabirləşmə əməliyyatlarına da tətbiq olunur. | Əməliyyatlar üzrə hesabatlıq | New feature |
| **CORE** | #99530 | Məhsul, təchizatçı və müştəri kartlarının blokdan çıxarılması üçün təsdiq prosesləri həyata keçirilmişdir. Aktiv təsdiq prosesi olduqda kartın blokdan çıxarılmasının qarşısını alan və istifadəçiyə müvafiq bildiriş göstərən yoxlamalar əlavə edilmişdir. | Lokalizasiyanın əsası | New feature |

# 3. SMART Payroll təkmilləşdirilməsi

Təkmilləşdirmə qeydlərinə aşağıdakı təkmilləşdirmələr, yeni funksional imkanlar və səhvlərin düzəlişləri daxildir:

| Ölkə Kodu | ID | Məzmun | Funksional sahə | Dəyişiklik növü |
|---|---|---|---|---|
| CORE | #98778 | “Kadr hərəkəti” və “İşə qəbul olunanlar / İşdən azad olunanlar siyahısı” hesabatlarının sorğu səhifələrinə əmək müqaviləsinin “Müqavilə növü”, “Müqavilə növünün kodu” və “İş rejimi” xanaları üzrə filtrlərin qurulması imkanı əlavə edilib. | Hesabatlıq. Çap formaları | New feature |
| CORE | #96015 | İşçinin əmək haqqı vərəqələrinin göndərilməsi təkmilləşdirilmiş: əmək haqqı vərəqələrinin göndərilməsi üçün çevik mexanizm əlavə edilib. Bu mexanizm müxtəlif işçilər, bölmələr və ya hesablaşma qrupları üçün fərdi maketləri, hesabat dilini, məktub mətnini və əlavə faylın adlandırma şablonunu sazlamağa imkan verir. Yeniləmə həmçinin əlavə PDF faylı əməkdaşın parolu ilə qorunmasını dəstəkləyir və vərəqələrinin kütləvi və ya fon rejimində göndərilməsi zamanı sazlamanı düzgün seçilməsini təmin edən təkmilləşdirilmiş prioritet məntiqini təqdim edir. | Əmək haqqının hesablanması | New feature |
| CORE | #96713 | “Əmək haqqı sənədlərini təklif et” tapşırığı “Bildirişləri göstər” parametri ilə işə salındıqdan sonra, əmək haqqı sənədinin yaradılmasına mane olan səbəb mövcud olduqda, həmin səbəbin təsviri ilə birlikdə əməkdaşların siyahısı göstərilir. | Əmək haqqının hesablanması | New feature |
| CORE | #97278 | Əvəzetmə şərtlərinin sətirləri üzrə əmək haqqı elementi kitabı əməliyyatlarında hesablama dövrlərinin doldurulması məntiqi əlavə edilmişdir. Əvəzetmə sətrində başlama - bitmə tarixi bir neçə dövrü əhatə edirsə, əmək haqqının düzgün hesablanması üçün əvəzetmə sətrində göstərilən əmək haqqı elementi kartında “dövrlər üzrə bölüşdürmək” seçimi aktiv olmalıdır. | Əmək haqqının hesablanması | Bugfix |

| | | | | |
|---|---|---|---|---|
| CORE | #96428 | Əmək haqqı sənədinin sətrində "Əmək haqqı məbləği (YV)" xanasında dəyər dəyişdirildikdə, əgər vergi elementinin hesablanmasında TAX DISTRIBUTION BY PAY.AMT 21094032 və ya TAX DISTRIBUTION BY CORR.AMT 2109403 funksiyalarından istifadə olunubsa, 'Hesablama bazasının detalları' bölməsində məbləğlər yenidən hesablanır. | Əmək haqqının hesablanması | New feature |
| CORE | #96235 | Əmək haqqı üzrə ödəniş cədvəli yaradılarkən, işçinin eyni dövr üzrə birdən çox yekun əmək haqqı sənədinin olub-olmadığını müəyyən etmək üçün yoxlama tətbiq edilmişdir. Belə hallar aşkar edildikdə, həmin işçilər üzrə vergilər üzrə təfərrüatlı məlumatları yoxlamaq zərurəti barədə məlumat səhifəsi formalaşdırılır. Bundan əlavə, vergilər üzrə təfərrüatlı məlumatlar cədvəlində artıq uçota alınmış ödənişlərin nəzərə alınması məntiqi təkmilləşdirilmişdir: Uçotla aparılan dövrlərarası sənədlərdən yaranan məbləğlər ödənilmiş vergilərin axtarışından istisna edilmişdir; bu tip sənədlər üçün vergilər üzrə təfərrüatlı qeydlər yaradılarkən artıq uçota alınmış ödənişlərin axtarışı tamamilə buraxılır. | Əmək haqqı ödənişləri | New feature |
| CORE | #97632 | Sistemdə işçilərin bank hesabları matrisi üçün yeni cədvəl yaradılıb. Bu cədvəl əvvəlki məlumat strukturlarını genişləndirir və ödəniş qaydalarına uyğun olaraq bank hesabları, planlaşdırılmış məbləğlər, valyutalar və işçinin uçot qrupları barədə məlumatların daxil edilməsində istifadə olunur. Yeni "Ödəniş statusu detalları" funksionallığı yaradılıb. Onun qeydləri avtomatik olaraq işçilərin bank hesabları matrisindən və hesablanmış son əmək haqqı sənədlərindən alınan məlumatlara əsasən formalaşır. Müvafiq xanalardakı məbləğlər ödəniş sənədləri hesablandıqca avtomatik yenilənir, bu isə seçilmiş dövrdə konkret ödəniş qaydasına görə işçiyə ödəniləcək qalıq məbləği müəyyən etməyə imkan verir. Bunun üçün insan resursları | Əmək haqqı ödənişləri | New feature |

| | | | | |
|---|---|---|---|---|
| | | modulunun sazlanması səhifəsində "Ödəniş statusu detalları" parametri "Bəli" olaraq aktiv edilməlidir. Əlavə olaraq, "Ödəniş statusu detalları yarat" hesabatı reallaşdırılıb. Bu hesabat ödəniş statusu qeydlərinin avtomatik formalaşmadığı hallarda (işdən azad olunduqdan sonra əlavə ödənişlər, işə qəbuldan sonra ödəniş qaydaları barədə məlumatların gec daxil edilməsi) qeydlərin yaradılmasına imkan verir. Zəhmət olmasa nəzərə alın ki, yeni relizə keçid zamanı Empl. Bank Account Matrix2 (70950783) adlı yeni cədvəl üçün tələb olunan yeniləmə (upgrade) vaxtı mütləq nəzərə alınmalıdır. Əgər müştəri sistemində əvvəlki Empl. Bank Account Matrix (70950749) cədvəlindən istifadə edən xüsusi modifikasiyalar mövcuddursa, həmin modifikasiyalar da müvafiq şəkildə yenilənməlidir. | | |
| CORE | #97673 | İşdən azadolma əməliyyatının təsdiqinin ləğvi zamanı vəzifənin statusunun yoxlanılması əlavə edildi; əgər vəzifə statusu Təsdiqlənib deyilsə, əməliyyat bloklanır. | Ştat cədvəli | New feature |
| CORE | #97545 | Qrup əmrlərinin təsdiqlənməsi zamanı səhvlər aşkar edildikdə, bütün səhvləri əks etdirən ümumi bildiriş əlavə edilib. | Ştat cədvəli | New feature |
| CORE | #96425 | Fiziki şəxsdən əlaqəli işçi kartına atributların ötürülməsi prosesi təkmilləşdirildi: dəyəri doldurulmamış atributun işçi kartına əlavə olunmasına səbəb olan xəta aradan qaldırıldı. Həmçinin işçilərin siyahısı səhifəsinə atributlar üzrə filtrasiya əlavə edildi. | Ştat cədvəli | Bugfix |
| CORE | #97045 | Əmək haqqı elementi kitabı əməliyyatları cədvəlində əməliyyatın bitmə tarixi ilə işdən azadolma tarixi üst-üstə düşdüyü halda, işdən azadolma sətrinin təsdiqi ləğv edilərkən əmək haqqı elementi kitabı əməliyyatları cədvəlində əməliyyatın bitmə tarixinin silinməsi xətası aradan qaldırıldı. | Ştat cədvəli | Bugfix |

| | | | | |
|---|---|---|---|---|
| CORE | #98098 | “Əvəzçilik” tipli əmək müqaviləsi sətri “Təsdiqlənib” statusunda olduqda əmək müqaviləsinin şərtlərinin redaktə edilməsinə yoxlama əlavə edildi. | Ştat cədvəli | New feature |
| CORE | #98383 | 70950672 saylı “Əmək müqaviləsinin uzadılması” hesabatına aşağıdakılar əlavə edildi: işə salma səhifəsində “Bitmə tarixi” xanasının emalı; əmək müqavilələrindən birində hesabatın işləməsi zamanı xəta baş verərsə, hesabat işini davam etdirir və uğurla uzadılmış müqavilələri yadda saxlayır. | Ştat cədvəli | Bugfix |
| CORE | #98672 | Fiziki şəxsin "Əsas iş yeri" xarakterli təsdiq edilmiş müqaviləsi olmadığı təqdirdə, "Kənar əvəzçilik" iş növü ilə birdən çox əmək müqaviləsi yaratmaq imkanı əlavə edilib. | Ştat cədvəli | New feature |
| CORE | #99066 | "Köçürmə" növü qrup əmrində işçilərin kütləvi köçürülməsi üçün yeni imkan əlavə olunub, bu imkanlar aşağıdakılardır: Dəyişdiriləcək işçilərin və vəzifələrin kütləvi seçimi; Mərhələli tapşırıqlar vasitəsilə vəzifənin hər hansı xanasının və analitik vahidinin dəyişdirilməsi üçün qaydaların tətbiqi; Dəyişikliklərə öncədən baxış və təsdiqi;<br>Həll avtomatik olaraq yeni vəzifələr yaradır və təsdiqləyir, əmək müqaviləsi və qrup əmri sətirlərini formalaşdırır, mərhələli işləməyi, tətbiq edilmiş dəyişikliklərin ləğv edilməsini dəstəkləyir və inteqrasiya hadisələri vasitəsilə genişləndirilə bilər. | Ştat cədvəli | New feature |
| CORE | #99084 | "Vəzifələr" kartında, "Əsas əmək haqqı elementi kodu" xanasının yoxlanılması zamanı "Əsas əmək haqqının məbləği" xanasını yenidən təyin edən məntiq əlavə edilmişdir. | Ştat cədvəli | New feature |
| CORE | #99173 | "Əmək haqqı dövrləri"nin yaradılması zamanı uzun müddət davam edən sessiyalarda yaranan fasilələrin qarşısını almaq üçün əlavə commit tətbiq olunub. | Tabel | New feature |

| | | | | |
|---|---|---|---|---|
| CORE | #99174 | Əmək haqqı təqvimi sətirləri yaradılarkən bəzi təqvim günləri üçün qeydlərin olmaması ilə bağlı xəta mesajı əlavə olundu. | Tabel | New feature |
| CORE | #90828 | Ezamiyyə zamanı qanunvericiliklə müəyyən edilmiş normadan artıq verilmiş gündəlik xərclərin məbləğinin avans hesabatlarında avtomatik hesablanması üçün funksionallıq yaradılmışdır. Normadan artıq verilmiş gündəlik xərclərin məbləği vergitutma obyekti hesab olunur və əmək haqqı hesablanmasında nəzərə alınmalıdır. Funksionallıq artıq məbləğləri avtomatik müəyyən etməyə və onlar üzrə İşçi jurnalında qeydlər yaratmağa imkan verir. Gündəlik xərclər üzrə ezamiyyə avans hesabatının sətirlərinin avtomatik formalaşdırılması üçün funksionallıq yaradılmışdır. “Gündəlik xərclərin normalarının müəyyən edilməsi haqqında əmr” adlı ayrıca əmr növü yaradılmışdır. Bu əmrdə avans hesabatının müxtəlif sətir tiplərini və gündəlik xərclərin məbləğini həm bütün təşkilat üzrə, həm də ayrı-ayrı bölmələr, vəzifələr və ezamiyyət ölkələri üzrə tənzimləmək mümkündür. “Ezamiyyə marşrutları” adlı ayrıca sorğu kitabçası yaradılmışdır. Bu kitabçada tranzit ölkələr və onlarda qalma günlərinin sayı göstərilməklə kompleks ezamiyyə sxemləri formalaşdırmaq mümkündür. Ezamiyyə üzrə əmrlər yaradılarkən gündəlik xərclərin normalarını müəyyən etmək üçün istifadə olunan sətirlərin prioritetini çevik şəkildə tənzimləməyə imkan verən gündəlik xərclər normalarının prioritetliyi sazlaması yaradılmışdır. | İşdə olmama əmrləri | New feature |
| CORE | #96911 | “Məzuniyyət balansı” səhifəsinə, həmçinin “İşçinin məzuniyyət balansı” hesabatına “Gələcək istifadələri istisna et” adlı parametr əlavə olunub. Bu parametr göstərilən tarixdən sonra başlayan istifadə/kompensasiya/düzəliş günləri nəzərə alınmadan balansı müəyyən bir tarixə görə nəzərdən keçirməyə imkan | İşdə olmama əmrləri | New feature |

| | | | | |
|---|---|---|---|---|
| | | verir. Qeyd: Nəzərə alın ki, həm “Bitmə tarixində”, həm də “Gələcək istifadələri istisna et” düymələri aktiv olduqda, başlama tarixi məzuniyyət ilinin bitmə tarixindən sonra olan istifadə/kompensasiya/düzəliş qeydləri daxil edilməyəcək. | | |
| **CORE** | #99027 | “Məzuniyyət balansı” səhifəsində qazanılmış məzuniyyət günlərinin hesablanması yeniləndi. Əgər əvvəlki dövrlərdə işçinin balansında mənfi qalıq olubsa, artıq növbəti illərdə balansa baxış zamanı bu düzgün şəkildə əks olunur. Əvvəllər belə mənfi qalıqlar sıfırlanırdı. | İşdə olmama əmrləri | New feature |
| **CORE** | #99800 | Məzuniyyət balansı tarixinə mövcud olan tməzuniyyət günlərinin sayı nəzərə alınmaqla, məzuniyyət qrafiki sətirlərinin formalaşdırılması düzəldildi. | İşdə olmama əmrləri | Bugfix |
| **CORE** | #97784 | “Milliyyəti” soraqçası üçün yeni cədvəl yaradıldı, köhnə cədvəldən məlumatlar yeni cədvələ köçürüldü. | Technical | New feature |
| **CORE** | #98403 | "Əmək haqqının hesablanması funksiyaları" sənədləri bölməsinin təsviri yeniləndi. | Technical | New feature |
| **CORE** | #99172 | SMA PAYROLL HR və SMA PAYROLL CALC icazə dəstləri yeniləndi. | Technical | New feature |
| **CORE** | #99232 | İstifadəçilərin şəxsi məlumatları ilə bağlı sorğulara cavab vermək üçün "Fiziki şəxs" və "İşçi" cədvəl və xanalarının məxfilik üzrə təsnifatı yenilənmişdir. | Technical | New feature |
| **CORE** | #97698 | Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli, № 332-VIIQD Qanunu ilə Əmək Məcəlləsinin 177-ci maddəsinə edilmiş dəyişikliklərə uyğun olaraq hesablanmış orta əmək haqqı bir günlük əməkhaqqı qismən ödənişli sosial məzuniyyətdə və işəgötürənin təşəbbüsü ilə ödənişsiz məzuniyyətdə olması, eləcə də işçinin təqsiri olmadan boşdayanma səbəblərindən işçinin sonuncu bir günlük əmək haqqından az olduğu halda sonuncu bir günlük əməkhaqqının tətbiq edilməsi ilə bağlı 100 saylı hesablama | Əmək haqqının hesablanması | New feature |

| | | | | |
|---|---|---|---|---|
| | | funksiyası üçün yeni "OƏH dövrü üzrə" hesablama parametri yaradılmışdır və yeni hesablama alqoritmi sazlanmılmışdır. | | |
| **CORE** | #98147 | Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli, № 332-VIIQD Qanunu ilə Əmək Məcəlləsində edilmiş dəyişikliklərə uyğun olaraq, işçinin hərbi xidmətə çağırılması ilə əlaqədar əmək müqaviləsinə xitam verildikdə, işəgötürən tərəfindən işçiyə orta aylıq əmək haqqının azı üç misli məbləğində müavinət ödənilməsi ilə bağlı yeni hesablama elementi yaradılmışdır. Əmək haqqı sənədinin sətrində OƏH üçün başlama və bitmə dövrünün müəyyən edilməsi üçün yeni 2310 əmək haqqı hesablama funksiyası yaradılmışdır. | Əmək haqqının hesablanması | New feature |
| **AZ** | #97664 | Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli, № 332-VIIQD Qanunu ilə Əmək Məcəlləsində edilmiş dəyişikliklərə uyğun olaraq məzuniyyət hesablanmasında aşağıda qeyd olunan dəyişikliklər edilmişdir: Məzuniyyət vaxtı üçün orta əməkhaqqı hesablanarkən qismən ödənişli sosial məzuniyyətdə və ya işçinin təşəbbüsü ilə olmayan ödənişsiz məzuniyyətdə olduğu, eləcə də işçinin təqsiri olmadan baş vermiş boşdayanma səbəbindən tam işlənilməmiş ayların yaxın tam işlənilmiş aylarla əvəz olunması tələbi ilə bağlı sazlama imkanı yaradılmışdır. Məzuniyyətdə olduğu müddət ərzində işçinin sonuncu əmək haqqından az olmamaqla orta əmək haqqının saxlanılması tələbi ilə bağlı məzuniyyət əmək haqqı elementi üzrə yeni əmək haqqı hesablanması alqoritmi yaradılmışdır. | Əmək haqqının hesablanması | New feature |
| **AZ** | #97712 | Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli, № 332-VIIQD Qanunu ilə Əmək Məcəlləsində edilmiş dəyişikliklərə uyğun olaraq sistemdə atalıq məzuniyyətinin uçotu və hesablanması sazlanılmışdır. | Əmək haqqının hesablanması | New feature |

| | | | | |
|---|---|---|---|---|
| **AZ** | #99414 | İşçinin əmək haqqı vərəqəsi e-poçt vasitəsilə göndərilərkən məktubun mətni üçün şablon şazlanılmışdır. | Əmək haqqının hesablanması | New feature |

# 4. Sistemin təkmilləşdirilməsi proseduru

Sistemin təkmilləşdirilməsi iki mərhələdən ibarətdir:

- Kodun təkmilləşdirilməsi
- Məlumatların təkmilləşdirilməsi

Kodun təkmilləşdirilməsi iki versiyanın mətn birləşməsi ilə həyata keçirilən, obyekt dəyişikliklərinin buraxılışdan müştəri bazasına köçürülməsidir.

Məlumatların təkmilləşdirilməsinə yeni buraxılışda məlumat sxemi dəyişdirdikdə və ya yeni parametrlər olduqda mövcud məlumatların dəyişdirilməsi aiddir. Məlumatların təkmilləşdirilməsi prosedurunun başlanması zamanı kod yeniləndikdə mövcud məlumatlar avtomatik olaraq dəyişdirilir. Yeni modulların sazlanması əl ilə həyata keçirilir.

# 5. SMART Localization təkmilləşməsi üzrə şərtlər və qaydalar

1. SMART business (bundan sonra "Şirkət" adlandırılacaq), Microsoft Dynamics Tərəfdaş Lokalizasiya və Tərcümə Lisenziyalaşdırma Proqramında (PLLP) müəyyən edilmiş tələblərə və məhdudiyyətlərə uyğun olaraq SMART Localization həllini (bundan sonra "Həll" adlandırılacaq) inkişaf etdirir və təkmilləşdirir.
2. Hər rübün ilk iş günü Şirkət Həll təkmilləşdirmələrini dərc edir. Sonradan Şirkət təkmilləşdirmələrin buraxılış tezliyini dəyişdirmək hüququnu özündə saxlayır.
3. Həllərin təkmilləşdirmələri Microsoft dəstək müddəti mərhələsində olan bütün Microsoft Dynamics NAV və Microsoft Dynamics 365 Business Central məhsul versiyaları üçün aktiv abunəsi olan Şirkətin müştərilərinə ödənişsiz əsasda təqdim olunur. Proqram məhsulunun bitmə dövrünü yoxlamaq üçün https://support.microsoft.com/en-us/lifecycle/search ünvanına keçin.
4. Müştərinin sisteminin təkmilləşdirməsi təkmilləşdirmə cədvəllə, həmçinin müştəri sistemlərinə təkmilləşdirmələrin köçürülməsi, o cümlədən parametrlərin təkmilləşdirilməsi və sistemin sınaqdan keçirilməsi üzrə işlərin həcmi əvvəlcədən razılaşdırılmaqla həyata keçirilir və növbəti versiyanın buraxılışından gec olmayaraq başa çatdırılmalıdır. Təkmilləşdirmənin təxmini buraxılış cədvəli 3 ayda bir dəfədir. Təkmilləşdirmə əvvəlcədən qarşılıqlı razılaşma əsasında 3 aya təxirə salına bilər.
5. Sistemin müştəri tərəfindən müstəqil təkmilləşdirilməsi imkanı da nəzərdə tutulub. Bu məqsədlə, Şirkət məlumatların təkmilləşdirilməsi üçün parametrlərin və skriptlərin yenilənməsi ilə bağlı tövsiyələr daxil olmaqla, təkmilləşdirmələri təmin etməlidir. Lakin, qeyd etmək lazımdır ki, sistemin müştəri modifikasiyaları təkmilləşdirmənin mənbə kodu ilə uyğun gəlməyə bilər və nəticədə sistemin təkmilləşdirilməsi və ya yerinə yetirilmiş modifikasiyası düzəliş edilməlidir.
6. Şirkət 4-cü bəndə uyğun olaraq aktiv abunələri olan və müntəzəm yeniləmələri həyata keçirən müştərilər üçün Həll səhvlərini pulsuz olaraq düzəldəcək.
7. Şirkət hər bir təkmilləşdirmədə dəyişikliklərin ətraflı təsvirini təqdim etməli və onu təkmilləşdirmənin buraxıldığı tarixdən gec olmayaraq dərc etməlidir.
8. Qanunvericilikdəki diapazondan kənar yeniləmələr və ya diapazondan kənar xətaların düzəldilməsi, təkmilləşdirmə buraxılışlarının tezliyindən asılı olmayaraq müştərilərə təqdim edilir.
9. 3-cü bəndə uyğun olaraq Microsoft-un dəstəyinin əsas müddətinə daxil edilməyən sistemin "köhnəlmiş" versiyaları və ya aktiv abunəsi olmayan müştərilər üçün Həllin tam və ya fərdi funksionallığının təkmilləşdirməsi Şirkət tərəfindən müvafiq qaydada həyata keçirilir, nəzərə alaraq ki, belə bir təkmilləşdirmə xüsusi olaraq belə müştəri üçün hazırlanmışdır və nəticədə belə müştəriyə ödənişli əsasda təqdim edilə bilər.
10. Bu müddəa və şərtlərdən hər hansı bir kənarlaşma razılaşma şəklində sənədləşdirilməlidir, əks halda bu şərtlər tətbiq edilir.